# “Ordumuzun döyüş ruhu yüksək səviyyədədir”

Müdafiə Nazirliyinin Mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 31-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə bildirib ki, döyüş əməliyyatları əsasən Ağdərə, Xocavənd və Qubadlı istiqamətlərində davam edib. Düşmən yenə də dezinformasiya yayaraq Azərbaycan Ordusunun, guya, Ermənistanın Qafan şəhəri yaxınlığındakı David Bek kəndi istiqamətində döyüş əməliyyatları apardığını iddia edib. Reallıqda isə bu istiqamətdən Qubadlını artilleriya atəşinə tutan legitim hərbi hədəfə ordumuz adekvat cavab tədbirləri olaraq atəş açıb.

“Düşmən bilməlidir ki, bundan sonra da ona qarşı adekvat cavab tədbirləri görüləcək. Qoşunlarımızın müdafiə xəttinə yaxınlaşmağa cəhd göstərən Ermənistanın xüsusi təyinatlılardan ibarət kəşfiyyat-diversiya qrupunun fəaliyyətinin qarşısı qətiyyətlə alınıb. Onları daşıyan avtomobil texnikası da şəxsi heyətlə birlikdə dəqiq atəş zərbəsi ilə məhv edilib. Bundan başqa, cəbhənin digər istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 “Smerç” və üç “Qrad” olmaqla 5 yaylım atəşli reaktiv sistemi, 5 tankı, 3 piyada döyüş maşını, 15 müxtəlif tipli artilleriya topu, 1 “Osa” zenit raket kompleksi, 1 radioelektron mübarizə stansiyası, biri sursatla dolu 3 avtomobil texnikası ordumuzun cavab tədbirləri nəticəsində məhv edilib”, - deyə Anar Eyvazov bildirib.

Anar Eyvazov qeyd edib ki, Azərbaycan Ordusunun Xocalını, Şuşanı və Xankəndini raket atəşinə tutması, bunun, guya, mülki əhaliyə qarşı yönəlməsi barədə Ermənistan mətbuatının tirajladığı məlumatlar da saxtadır, növbəti dezinformasiyadır. Ordumuz düşməndən fərqli olaraq mülki əhaliyə deyil, yalnız hərbi hədəflərə atəş açır. Azərbaycan Ordusunun silahlanmasında beynəlxalq hüquqla qadağan olunmuş heç bir silah-sursat yoxdur. Bununla bağlı yayılan dezinformasiyalar düşmənin törətdiyi müharibə cinayətlərindən diqqəti yayındırmaq məqsədi daşıyır.

“Hazırda qoşunlarımız bütün istiqamətlərdə əməliyyat şəraitinə tam nəzarət edir. Ordumuzun döyüş ruhu yüksək səviyyədədir. Ali Baş Komandanımızın bütün döyüş tapşırıqları icra edilir. Qələbə bizimlədir”, - deyə mətbuat katibi vurğulayıb.

***AZƏRTAC***

Azərbaycan.- 2020.- 1 noyabr.- S.5.